

*"Audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət edir."*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

# AUDİT ANLAYIŞI

## Auditin məqsədi və beynəlxalq audit standartlarının tələblərinə uyğun olan məsələlər

### DAXİLİ AUDİTİN TƏYİN EDİLMƏSİ

Daxili audit müəssisənin fəaliyyətinin yaxşılaşdırılması istiqamətində obyektiv, müstəqil zəmanət və məsləhət verən fəaliyyət növüdür. Daxili audit risklərin, nəzarətin və korporativ idarəetmənin effektivliyinin artması və qiymətləndirilməsi prosesində sistemləşmiş və ardıcıl yanaşmadan istifadə edərək müəssisəyə qarşısına qoyduğu məqsədə çatmağa kömək edir.

### DAXİLİ AUDİTİN PEŞƏKAR TƏCRÜBƏSİNİN BEYNƏLXALQ ƏSASLARI

#### TƏYİN EDİLMƏSİ

Daxili auditin təyin edilməsi üçün məqsəd seçilir, xarakteri, həcmi və daxili auditin tərkibi aydınlaşdırılır.

#### ETİK KODEKS

Etik kodeks daxili auditin aparılması zamanı müəssisənin və işçilərinin özünü necə göstərməsi, onların prinsip və məqsədlərini müəyyən edir.

#### DAXİLİ AUDİTİN PEŞƏKAR STANDARTLARI

Standartlar prinsip kimi təşkil edilib və daxili auditin aparılmasında təməl rolunu oynayır. Standartların strukturunu keyfiyyət xasiyyətnaməsi standartları; fəaliyyət standartları və təcrübədə istifadə təşkil edir.
Aşağıda göstərilənlər standartın tələblərini yerinə yetirmək üçün mütləqdir:
- dünya üzrə fiziki və hüquqi şəxslərin effektivliyinin qiymətləndirilməsi, daxili audit sahəsində professional fəaliyyəti üzrə bəyanatlar
- standartlarda istifadə olunan terminlərin açıqlanması

İstifadə olunan terminlərin açıqlanması terminlər lüğətində göstərilir. Standartları düzgün anlamaq və istifadə etmək üçün standartların qarşılıqlı vəziyyətinə, terminin konkret

mənasına və açıqlanmasına bir yerdə baxmaq lazımdır.

## TƏCRÜBƏ ÜÇÜN LAZİMİ GÖSTƏRİŞLƏR

Təcrübə göstərişləri yanaşmanın təhlili metodu və ya ayrı-ayrı daxili auditin aspektləri üçün istifadə olunur, lakin proses və əməliyyatlarının detallı təhlili üçün istifadə edilmir. Təcrübə göstərişi daxili auditorun etik kodeks və standartlardan istifadə üçün dərslik rolunu oynayır və ən yaxşı təcrübədən keçmiş yanaşma və metodlardan istifadəni təbliğ edir.:

- beynəlxalq, müxtəlif ölkə və sahələrin xüsusiyyətləri ilə əlaqəli spesifik suallar və məsələlər;
- qayda və qanunun xüsusiyyətləri ilə əlaqəli suallar.

## TƏCRÜBƏ DƏRSLİYİ

Təcrübə dərsliyi daxili auditin fəaliyyətinin reallaşması üçün detallı təhlil, proses və yanaşmalar, texniki, proqram və hesabatda istifadə olunan nümunələrdən ibarətdir.

## MÖVQENİN BƏYAN EDİLMƏSİ

Mövqenin bəyan edilməsi daxili auditə maraqlı olan geniş kütləyə və ya heç aid olmayan risk, nəzarət və korporativ idarəetməni, daxili auditin öhdəliklərini anlamağa kömək edir.

Etik kodeks prinsipləri:

Daxili auditorlar aşagıdakı prinsiplərə riayət etməlidir:

1. Düzgünlük.

- Düzgünlük daxili auditorun bünövrəsidir. Duzgünlüyünə gorə auditorun fikirlərinə etibar edirlər.

2. Obyektivlik.

- Daxili auditor audit obyektlərinin məlumat yiğimi, qiymətləndirilməsi və məlumatların göndərilməsi prosesində yüksək dərəcədə peşəkar obyektivlik göstərməlidir.

3. Məxfilik.

- Daxili auditor fəaliyyəti zamanı istifadə etdiyi məlumatların məxfiliyinin saxlanılmasını təmin etməlidir. Ancaq bu məlumatların xüsusi hüquqi və ya professional tərəfdən açıqlanmasının mütləq olması istisnadır.

## PEŞƏKARLIQ

- Daxili auditor daxili audit sferasında lazımi xidmətlərin göstərilməsində bilik və malik olduqları təcrübələrdən istifadə etməlidirlər.

## DAXİLİ AUDİTORLAR AŞAGIDAKİ QAYDALARA ƏMƏL ETMƏLİDİR:

1. Düzgünlük.

- öz işlərini düzgün və vicdanlı aparmalı;
- qanun çərçivəsində hərəkər etməli və qanun tələb edərsə, lazimi məlumatları açıqlamalı;
- daxili auditə və ya öz müəssisəsinə zidd hərəkatlarda iştirak etməməli;
- öz müəssisələrinin hüquqi və etik məqsədlərinə hörmət etməli və reallaşmasına kömək etməlidir.

2. Obyektivlik.

- daxili auditor fəaliyyətinə qeyri obyektiv yanaşma anlayışı yaradan və müəssisənin maraqlarına zidd olan vəziyyətlərdən qaçmalı;
- peşəkar fikirlərinə təsir edəcəyindən çəkinərək hədiyyə qəbul etməməli;
- mümkün olan faktları açıqlamadığı halda audit obyektinin hesabatına təsir edə biləcəyini nəzərə alaraq açıqlamalıdır.

3. Gizlilik.

- öz öhdəliklərini yerinə yetirən zaman istifadə etdiyi məlumatların qorunması prosesində uzaqgörən və müdrik olmalı;
- məlumatları öz maraqlarına uyğun və ya qanuna zidd istifadə etməməlidir.

4. Peşəkarlıq.

- ancaq öhdəsindən gələ biləcək bacarıq və biliklərinə əmin olduqları halda auditi aparmalı;
- beynəlxalq standartlara uyğun olaraq daxili audit xidmətini həyata keçirməli;
- göstərdiyi xidmətin keyfiyyətinin artırılması üçün peşəkarlığını dayanmadan inkişaf etdirməlidir.